ELM VƏ ALİ TƏHSİL ÜZRƏ DÖVLƏT AGENTLİYİ

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

State Education Development Agency Republic of Latvia

HTP HÖKUMƏTLƏRARASI TƏQAÜD PROQRAMLARI

**Latviyada Təhsil**

**Hökumətlərarası Təqaüd Proqramı (HTP) – 2026/2027**



## Ümumi məlumat

Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında təhsil sahəsində əməkdaşlığa dair 2017-ci il iyulun 17-də Riqa şəhərində imzalanmış Sazişə uyğun olaraq, Latviya hökuməti Azərbaycan vətəndaşları üçün təqaüd proqramı elan edir:

**Təhsil səviyyəsi:** bakalavriat, magistratura, doktorantura

**Tədris dili:** ingilis və latış

**Maliyyə şərtləri:** bakalavriat üzrə aylıq 500 avro, magistratura üzrə aylıq 600 avro, doktorantura səviyyəsi üzrə aylıq 700 avro təqaüd təmin olunur.

**Səyahət və sığorta xərcləri, təhsil haqqı namizədlərin özləri tərəfindən qarşılanır.**

**Təqaüd proqramı barədə ətraflı məlumat:** **https://www.viaa.gov.lv/en/studies**

**İxtisas və universitetlərə dair məlumat:** **https://www.studyinlatvia.lv/**

**Son müraciət tarixi: 01.04.2026**

**Tələb olunan sənədlər:**

- Qəbul məktubu (Latviya ATM-lərindən birindən);
- CV (Europass format);
- Motivasiya məktubu;
- Təhsil sənədlərinin və qiymət cədvəllərinin təsdiqlənmiş surətləri;
- 2 ədəd akademik tövsiyə məktubu (son altı ayda imzalanmış və möhürlü);
- Təqaüd verilən müddət üçün tədris planı;
- Xarici dil sertifikatının təsdiqlənmiş surəti;
- Ümumvətəndaş pasportunun sürəti.

**Qeyd: Tələb olunan sənədlərin ingilis və ya latış dilində təqdim olması mütləqdir.**

**Seçim prosesi:** Namizədlərin müraciətlərinin dəyərləndirilməsi birbaşa Latviya Dövlət Təhsil İnkişaf Agentliyi (DTİA) tərəfindən həyata keçirilir.

**Müraciət forması:** Müsabiqədə iştirak etmək arzusunda olan Azərbaycan Respublikası vətəndaşları

- **1-ci** Latviya elektron ərizə sistemi doldurulub təsdiq etməlidir; https://scholarships.viaa.gov.lv/en/login - **01.04.2026-cı il** tarixinədək;
- **2-ci** Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sistemini* tamamlayıb təsdiq etməlidir (*şərti/formal müraciət*); https://portal.edu.az/ **-01.04.2026-cı il** tarixinədək;

*** 2026/27-ci tədris ili üzrə Latviya təqaüd proqramına layiq görüləcək şəxslər sırasından yalnız Elm və Təhsil Nazirliyinin elektron ərizə sistemini tamamlamış şəxslərin adları HTP çərçivəsində xaricdə təhsil almaq hüququ qazanmış Azərbaycan Respublikası vətəndaşlarının siyahısına daxil ediləcəkdir. Bunu nəzərə alaraq, Latviya tərəfinə edilmiş müraciətlərlə yanaşı, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elektron ərizə sistemi üzrə də müraciətlərin təsdiqlənməsi xahiş olunur.**

**Əlaqədar şəxs:**

Azərbaycan tərəfdən: htpinfo@eatda.edu.az

Latviya tərəfdən: Mrs. Indira Balcere (DTİA-nın əməkdaşı)

- Tel: +371 67814341, e-mail: indira.balcere@viaa.gov.lv scholarships@viaa.gov.lv